Sizə Dəccal haqqında heç bir peyğəmbərin öz qövmünə demədiyi şeyləri söyləyimmi? O, tək gözlüdür və özü ilə cənnət və cəhənnəmə bənzər şey gətirir,

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: Sizə Dəccal haqqında heç bir peyğəmbərin öz qövmünə demədiyi şeyləri söyləyimmi? O, tək gözlüdür və özü ilə cənnət və cəhənnəmə bənzər şey gətirir, onun cənnət dediyi şey cəhənnəmdir və Nuhun öz qövmünü onun haqqında xəbərdar etdiyi (qorxudub çəkindirdiyi) kimi mən də sizi xəbərdar edirəm.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) öz səhabələrinə Dəccal haqqında- özündən əvvəl heç bir peyğəmbərin danışmadığı xüsusiyyətləri və əlamətləri haqqında xəbər verir: O, tək gözlüdür. Uca Allah onunla birlikdə göz görüntüsünə görə cənnət və cəhənnəmə bənzər bir şey yaratdı. Amma onun cənnəti cəhənnəmdir, cəhənnəmi isə cənnətdir. Kim ona itaət edərsə, insanların gördükləri bu cənnətə daxil edər, lakin o, yandıran bir oddur. Və kim ona itaət etməzsə, insanların gördükləri cəhənnəmə daxil edər, lakin o, gözəl cənnətdir. Sonra, Nuh öz qövmünü xəbərdar etdiyi kimi, Peyğəmbər də (Allahın salavatı və salamı onun üzərinə olsun) bizi onun fitnəsindən çəkindirib xəbərdar etdi.

http://sunnah.global/hadeeth/az/show/3110